AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

Kapital Bank
BİRİNCİ BANK

# Respublika Fənn Olimpiadaları

Rayon (Şəhər) mərhələsi

# Tarix

Ad ______________________

Soyad ______________________

Məktəb ______________________

1. İmtahan müddəti 90 dəqiqədir.
2. 4 səhv cavab 1 düz cavabı aparır.
3. Hər sual 4 bal ilə qiymətləndirilir.
4. Nəzarətçilərə yalnız cavab kartları təqdim olunur.
5. Rayon (Şəhər) mərhələsinin nəticələrini www.olimpiada.edu.az saytından və ya təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

**UĞURLAR!**

# 11-ci sinif

04.02.2018

**1. Qeyd edilənlər aiddir:**
- Ərəb coğrafiyaşünası olmuşdur
- O dövrədək əldə edilmiş coğrafi biliklərə yekun vurmuşdur
- Siciliya kralı II Rojerin sarayında dünyanın böyük xəritəsini yaratmışdır

A) İdrisi B) Biruni C) İbn Rüşd
D) Piri Rəis E) Məsudi

**2. Yam- Zapol müqaviləsinə əsasən, Reç Pospolitaya keçmiş ərazi:**
A) Riqa B) Pskov C) Tartu
D) Orşa E) Velij

**3. Uyğunluğu müəyyən edin:**
1. Mayyalılar
2. Asteklər
3. İnklər
a. E.Korteslə ilk döyüşdə məğlub oldular.
b. Paytaxtında qul bazarı vardı.
c. Planetlərin günəş ətrafında hərəkətini hesablamışdılar.
d. F.Pisarro tərəfindən işğal edilmişdi.
e. Portuqallar tərəfindən işğal edilmişdi.
A) 1-a; 2-b; 3-c
B) 1-b,c; 2-a; 3-d,e
C) 1-d; 2-a,b,c; 3-e
D) 1-c; 2-a,b; 3-d
E) 1-b,e; 2-c; 3-d

**4. Qeyd edilənlər aiddir:**
- Bağdadda böyümüş və yaşamışdır.
- Ömrünün 40 ildən çoxunu bədii və elmi yaradıcılığa həsr etmişdir.
A) X.Təbrizi
B) İ.Yasər
C) Ət-Təbəri
D) İbn-Xordadbeh
E) M.Füzuli

**5. 1582-ci ildə Sultan III Muradla sülh danışıqları aparmış Səfəvi səfiri:**
A) Oruc bəy Bayat
B) İbrahim xan Tərxan
C) Peykər xan
D) İmamqulu xan Qacar
E) Məhəmməd xan Ustaclı

**6. A.Kontarinin həyat üçün əlverişli məhsulların çoxluğu baxımından Təbrizdən üstün hesab etdiyi şəhər:**
A) Şamaxı B) Ərdəbil C) Naxçıvan
D) Gəncə E) Marağa

**7. 1474-cü il qiyamı zamanı öz süvari dəstəsi ilə Təbrizin təhlükəsizliyini təmin etdi:**
A) Maqsud bəy
B) Sufi Xəlil
C) Süleyman bəy Bicanoğlu
D) Əbih Sultan
E) Yaqub Mirzə

**8. Özbəyin 1335-ci ildəki birinci yürüşü zamanı onu ölkədən qovdu:**
A) Arpa xan
B) Əmir Çoban
C) Əbu Səid
D) Məhəmməd xan
E) Həsən Çobani

**9. 729-730-cu illərdə Xəzərlər üzərinə yürüş etmiş ərəb sərkərdəsi:**
A) Bədr əl-Kəbir
B) Salman
C) Əbdürrəhman
D) Mütəzid
E) Məsləmə

**10. IX əsrdə yaşamış Uyğur şairi:**
A) Altuntaş B) Əhməd Yasəvi
C) Yulluq Tigin D) Aprinçur Tigin
E) Yınal Təkin

**11. Uyğunluğu müəyyən edin:**
1. III David 2. Aşot Baqrationi 3. III Baqrat
a. Aranuçini özünə iqamətgah seçmişdi
b. Bütün Gürcüstan torpaqlarının birləşdirilməsini başa çatdırmışdı
c. Tao-Klarceti knyazlığının əsasını qoymuşdu
d. Tao-Klarceti knyazlığında kilsə - monastr şəbəkəsi genişlənmişdi
A) 1-a,b; 2-c; 3-d
B) 1-d; 2-a; 3-c,b
C) 1-b; 2-c,d; 3-a
D) 1-b; 2-a,c; 3-d
E) 1-d; 2-b; 3-c

**12. Xilafət dövründə Azərbaycan üçün səciyyəvidir:**
A) Türklərin Azərbaycana üçüncü axını başlanmışdı.
B) Tikinti sahəsində əvvəlki ənənələr davam etdirilirdi.
C) Tağlı konstruksiyaların qurulmasına başlanmışdı.
D) Sərraclıq və xarratlıq peşələri yaranmışdı.
E) Şəhərlərin hamısı qala divarları ilə əhatə olunmuşdu.

**13. Slavyanların 1032-ci il yürüşündən fərqli olaraq 1033-cü il yürüşü:**
A) Qalibiyyətlə nəticələndi.
B) Dərbənd hakimindən qisas almaq üçün edildi.
C) Şirvanşahların məğlubiyyəti ilə nəticələndi.
D) Alanlarla birgə təşkil olundu.
E) Şirvanda 10 min adamın öldürülməsi ilə nəticələndi.

**14. Cənubi Azərbaycanın Birinci dünya müharibəsi dövrünə aiddir:**
A) Məhəmmədəli şahın devrilməsi və İranda konstitusiyanın yenidən bərpa edilməsi
B) Müzəfərəddin şahın konstitusiya haqqında fərman verməsi
C) Milli hökumətin təşkili
D) Əncümənlərə seçkilərin keçirilməsi
E) Azərbaycanlılara qarşı soyqırımın həyata keçirilməsi

**15. Fransada Milli Blok hökümətinin həyata keçirdiyi siyasətə aiddir:**
1. Daxili böhranı aradan qaldırmağa səy göstərməsi
2. Rura qoşun yeridilməsi
3. Özəl müəssisələrin milliləşdirilməsi
4. Sabit qiymətlərin qoyulması
5. Əmlak senzinin ləğv edilməsi
A) 1, 2, 4, 5
B) 3, 4, 5
C) 1, 2
D) 2, 3, 4
E) 3, 5

**16. 1798-ci ildə N. Bonapartın Misirə yürüş etməkdə məqsədi:**
A) Yeni ərazilər işğal etməklə konsulluq rejimini möhkəmləndirmək
B) Böyük Britaniyanın Hindistanla əlaqələrini kəsmək
C) Osmanlı dövlətinin Fransaya qarşı qurulan ikinci koalisiyaya qoşulmasının qarşısını almaq
D) Osmanlı dövlətini Şimali Afrikadan çıxarmaq və ticarət yollarını ələ keçirmək
E) Böyük Britaniyanın ərəb ölkələri ilə ticarət əlaqələrini kəsmək

**17. Sisianovun Cavad xana tabe olmaq haqqında verdiyi şərtlərdə nəzərdə tutulmurdu:**
A) Gəncə xanlığının bütün əhalisinin Rusiyanın tabeliyinə keçməsi
B) Gəncə xanlığının Gürcüstandakı rus qoşunlarını ərzaqla təmin etməsi
C) Gəncə xanlığının hər il 20 min manat xərac ödəməsi
D) Gəncə xanlığının ləğv olunması
E) Cavad xanın oğlunun girov verilməsi

**18. Uyğunluğu müəyyən edin:**
Femistokl, Demosfen, Miltiad, Leonid
A) Salamin, Xeroneya, Fermopil, Marafon
B) Fermopil, Marafon, Xeroneya, Salamin
C) Xeroneya, Femopil, Salamin, Marafon
D) Marafon, Salamin, Fermopil, Xeroneya
E) Salamin , Xeroneya , Marafon, Fermopil

**19. Almaniyanın son orta əsrlər tarixini xarakterizə edir:**
A) Təhkimli kəndlilərin şəxsi azadlıq əldə etməsi
B) Hanza ittifaqının təşkil edilməsi
C) Ölkədə feodal dağınıqlığının daha da artması
D) Alman krallarının səlib yürüşlərində iştirak etməsi
E) Kilsənin ləğv edilməsi uğrunda mübarizənin başlanması

**20. Qaraqoyunlu İsgəndərin hakimiyyət dövrü üçün səciyyəvidir:**
A) Şəki hakimliyin müstəqilliyinə son qoyulması
B) Şirvanşahların vassal asılılığına son qoyulması
C) Dövlətin Əmir Teymurun vassalına çevrilməsi
D) Kürdən cənubdakı əmirlərin tabe edilməsi
E) Şirvanşahlarla dostluq əlaqələrinin qurulması

**21. Qədim Misir və Qədim Albaniya dövlətləri eyni əsrdə:**
A) Makedoniyalı İsgəndərin imperiyasının tərkibinə qatılmışdılar
B) quldarlıq quruluşuna keçmişdilər
C) alan tayfalarının yürüşlərinə məruz qalmışdılar
D) Əhəməni dövlətinin tərkibinə qatılmışdılar
E) Roma qoşunlarının hücumlarına məruz qalmışdılar

**22. Uyğunluq gözlənilmişdir:**
A) Xəzər vilayətinin bəyləri kənd idarəçiliyindən uzaqlaşdırıldı - 1865-ci il “Kənd cəmiyyətləri” haqqında qanunla
B) Şamaxı quberniyasında dövlət kəndliləri “mülkədar tabelisi” adlanmağa başladı - 1846-cı il 6 dekabr reskripti ilə
C) Bakı quberniyasında kişi cinsindən olan 15 yaşına çatmış sahibkar kəndlilərinə 5 desyatin torpaq payı ayrıldı – 1870-ci il burjua islahatına əsasən
D) Yelizavetpol quberniyası kəndlilərinə 5 desyatin torpaq verilməyə başlandı -1847-ci il “Əsasnaməsinə” görə
E) Sahibkar kəndliləri Zaqatala dairəsində feodal asılığından azad edildi – 1870-ci il burjua islahatına əsasən

**23. SSRİ-nin birinci konstitusiyasına əsasən:**
A) Azərbaycan SSR beynəlxalq münasibətlərdə öz mənafeyini müdafiə etməyi RSFSR-ə tapşırdı
B) Azərbaycan SSR-in hüquqi cəhətdən formalaşması başa çatdı
C) Azərbaycan SSR-in bəzi torpaqları Ermənistana verildi
D) SSRİ – də yaşayan bütün xalqların formal da olsa, hüquq bərabərliyi təsbit olundu
E) Müttəfiq respublikalar iqtisadi inkişaf yolunu özləri seçə bilərdilər

**24. Azərbaycan Xalq Cumhuriyyətinin IV hökümət kabinetinin fəaliyyəti dövrünə aiddir:**

1. Denikinə qarşı Gürcüstanla hərbi-müdafiə paktının imzalanması
2. Naxçıvan bölgəsində "erməni idarəçiliyi"nin iflasa uğraması
3. Qarabağ general - qubernatorluğunun yaradılması
4. İranla Azərbaycan arasında dostluq haqqında müqavilə imzalanması

A) 1, 2
B) 2, 3
C) 3, 4
D) 1, 3
E) 2, 4

**25. Uyğunluğu müəyyən edin:**

1. M.Ə.Rəsulzadə
2. Ə.Topçubaşov
3. N.Nərimanov

a. Ümumrusiya müsəlmanlarının I qurultayında məruzə ilə çıxış edib.
b. "Müsəlman gənclik təşkilatı"nı yaradıb.
c. "Hümmət" təşkilatının fəaliyyətində yaxından iştirak edib.
d. III Dövlət Dumasına deputat seçilib.
e. AXC-nin birinci hökümət kabinetini təşkil edib.

A) 1-b;2-d;3-c
B) 1-c; 2-b;3-d,e
C) 1-b,e; 2- e; 3-d
D) 1-a; 2-d,e;3-b
E) 1-b,c; 2-a ;3-c